# Şah İsmayıl ve Gülzar Xanım

Destan üstadnâme ile başlar. Kanhedar bölgesinde Adil Şah isimli, adaletli, sevilen bir padişah yaşar. Adil Şah'm çocuğu olmamaktadır. Bir gün sarayına bir misafir gelir; Şah ona hürmet gösterir, izzet ikram eder. Konuk giderken Adil Şah'a bir elma verir ve yarısını kendisinin yansını da kadınının yemesini öğütler. Şah ile kadını elmayı paylaşıp yerler ve bir süre sonra bir oğulları dünyaya gelir; adını İsmayıl koyarlar.

tsmayıl bir gece rüyasında gördüğü kıza vurulur ve sevdiğini bulmak üzere atasından izin alır, helalleşip yola düşer. Yolda Remdan Peri adlı bir kıza rastlar. Peri ona düşmanları olduğunu ve İsfehan'a kaçtığını söyler. İsmayıl Remdan Peri'nin düşmanları ile vuruşarak onları yener ve Peri'nin tutsak olan kardeşlerini de kurtarır. Onu bu vilayete şah yaparlar. Ama, İsmayıl Remdan Peri'nin büyük kardeşini kendi yerine padişah yapıp, kendisi öz yoluna devam eder. Ancak, Remdan Peri onu yalnız bırakmaz; İsmayıl'in Gülizar isimli bir sevgilisi olduğunu ve onun için yollara düştüğünü bildiği halde ondan el çekmez. Epeyce gittikten sonra bir yol ayrımına geldiklerinde Şah İsmayıl der:

- Biz uzaq yolla getsek vaxt azdır. Axı indiler Gülzar'ın toyu olmalıdır. Odur ki, kese yolla getmeliyik. Ne olar olar, xeyir Allah'dan.

Onlar kese yolla getmeli olurlar. Bir qalaya rast gelirler. Bu da kimin qalası olsa yaxşıdır? Hele telesmeyini tez bilseniz, tez qocalarsmız. Yolcular yolla getmek isteyirler ki, bir atlı kestirir onların başının üstünü:

- Aye, a nenesi ağlar qalmışlar, lap vaxtında gelmişiniz. İki kelle çatmır ki, minarem baş olsun, indi sizi de o dünyaya göndererem. Siz bilirsiz mi ki, her burdan keçen baş vermelidir?!

Şah İsmayıl gözleri yaşarana qeder güldü ve sonra dedi:

- Qoçaq, adam söz dememişden bir ölçüb biçer. Men de senin kimi adamam. Ne bilirsen kimin başı üzülecek. Bu qız da bacımdır. Sözün nedir?

Erep Zengi bir deli ne're çekib aldı, görek ne dedi:

Erepzengi:
Harayadır yolun, ay dili qafil?
Deyesen yetişib ecelin senin.
Hayır dua almısan mı anandan?
Nefes çekmeye yox macalm senin.

Şah İsmayıl:
Çekerem qılıcı qalarsan başsız
Yoxtu igitlerden xeberin senin.
Yurdunda sarımsaq ekib gederem,
Viraneye döner seherin senin.

Erepzengi:
İqitler serinden yapıram qalal,
Ne're çeksem cesmin boyanar qana.
Men adı belliyem, sen çolpa bala,
Bellidir yetişib zavalın senin.

Şah İsmayıl:
Meydana girmemiş xeddini aşma,
Özünden çıxaraq hedyanî danışma.
Kelle kelleleşme, file dolaşma,
İstesen de çatmaz teherin senin.

Erepzengi:
Men Erepzengiyem, alsan sen zerbe,
Başın Şarka düşer, cesedin qarbe.
Bacına deymerem, getsin xebere,
Anana danışsın ehvalrn senin.

Şah İsmayıl:
Sen kimiler bizde sayılır zayii
Yatmısan röyada, yazıqsan ayıl,
Öldürecek seni bil Şah îsmayıl,
Bu gün qaralacaq sabahm senin.

Beli, söz tamam yetdi. Her iki pehlivan el atdı qılıca. Gılıctan iş aşmadı, el atdılar nizeye/ gürze, emuda, şeşpere. Hiç birinden bir iş hasıl olmadı. Hava qaraldı, axşam düşdü, Erepzengi el saxladı:

- Cavan oğlan, besdi, davamız qalsm sabaha. Sabah Allah ya sene verer, ya mene. İndi ise sen de, bacın da menim qonağımsmız. Size otak vermek menim borcumdur.

Erepzengi Şah İsmayıl'a, bir de Remdan Periye bir otaq verdi. Özü ise getti öz otağına. Remdan Peri Şah İsmayıl'la çantalarında olan çörekten yeyip qurtaran kimi Şah İsmayıl o qeder yorulmuştu ki, küt getti. Remdan Peri ise yatmadı, Şah İsmayıl'in keşiyini çekdi. Allah'a dua eledi ki, sabah Şah İsmayıl qalip gelsin. Sabaha yaxm remi attı ki, görek bu işin axırı nece olacaq. Ona eyan oldu ki Erepzengi qızdır. Öz özüne inanmadı. Bir de remi attı, öyledir ki, var, Erepzengi qızdır. Artıq sabah açılırdı. Bu zaman Şah İsmayıl da ayıldı:

- Peri, sen hele yatmamısan? deye xeber aldı.

Remdan Peri dedi:

- Yox İsmayıl, men yatmadım ki, düşmene etibar olmaz. Men senin keşiyini çekmişem. Atalar sözü var axı: "Ehtiyat da, döğüşün bir terefidir."

Şah İsmayıl yuxulu gözleri ile Remdan Perini süzdü. Üreyinde olan mehebbeti bire min arttı bu Peri'ye. Bir istedi Peri'ni basıp qumral gözlerinden doyunca öpsün. Yadına düşdü ki, axı ant içmişdi ki, qayıdıb gelene qeder bacı qardaş kimi dolanmalıdırlar. Üreyi demirci küresi kimi yandı. Aldı görek bu münasibetle nece deyir, eşitenler sağ olsun.

Aldı Şah İsmayıl:

Bu qaddi kametle, bu kemalinle,
Qelbimi odlara qalayan perim.
Ele baxma can üzüldü, a zalim,
Saçın gerdenine dolayan perim.

Sen mene yar mısan, qardaş mısan de?
Bir yol yolcusu mu, sırdaş mısan de.
Bu çetin yollarda yoldaş mısan de,
Ürek ateşimden sen de yan perim.

Şah İsmayıl sensiz bağlayar qara,
Xesret qalsa işti sen tek dildara,
Qısmet olsa yetsem nazlı Gülzar'a,
Senden heç dönmerem a Remdan perim.

Remdan Peri de Şah İsmayıl'm niyetini başa düşmüşdü. Yanaqları mehebbetten od tutub yanırdı. Ne etmek olur ki? Benövşe kimi boynunu burmuşdu. Sebrini boğdu. Axı hele qarşıda çetin anlar var idi. Sesi titreye titreye dedi:

- Hele karşıda seni döyüş, güleş gözleyir. Sonra Allah kerimdi. Men sene bir sır açacağam. Allah qoysa sen qalip geleceksen. Men yatmayıb remi atmışam. Erepzengi qızdır. Sen güleşende ceht et ki, onun döşlerinden dut. Bele etsen, o tez yıxılacaq.

Şah İsmayıl eşittiqlerine inanmaq istemirdi. Hem Remdan perinin meharetine heyran olmuşdu, hem de Erepzengin'in quvvetine. Eğer doğrudan da erepzengi qızdırsa daha ona heç bir zaval yoxdur.

Beli, sabah açıldı. Üzünüze hayırlı sabahlar açılsın. Herkes meydana cem oldu. Erepzengi'yle Şah İsmayıl güleşmeye başladı. Şah İsmayıl macal vermedi, zırhlı paltarın altmda Erepzengi'nin memelerine yapışdı. Erepzengi da bayaq4 dizlerini qoydu yere. Şah İsmayıl Erepzengi'nin arxasını yere vurdu. Xenceri onun boğazına çekdi. Erepzengi bir ah çekti. Şah İsmayıl onu qolundan tutub kaldırdı. Dedi:

- Ne olub, qoçaq, bir can nedir ki, ondan ötrü bele ah çekirsen?

Erepzengi dedi:

- Yox, ele deyil. Men bir canın qorxusundan ah çekmirem. Men eht etmiştim ki, kim meni bassa ona ere gedeceyem. İndi görürem ki, sen meni öl dürmek isteyirsen. İxtiyarın var. Öldürebilersen. Men onsuz da seni bassaydım, öldüreceydim. Ama sen etibarsızlık etdin. Menim qız olduğumu har dan bilmisense sene sözüm yoxdur.

Şah İsmayıl gülerek:

- Goçaq, sen yaxşı bilirsen ki, kimden de daldalanabilsen, Allah'tan gizilenebilmezsen. İndi de görüm seni ne mecbur edip ki, bu cür qorxulu işle meşqul olursan? Axı pehlivanlıq qadm işi deyil. Bu qeder insan öldürmeyin, qan tökmeyin menası nedir?

Erepzengi dedi:

- Adam dedikte, men ancaq kişileri öldürmüşem. Bunun sebebi var. Vaxdıyle men de bir şah qızı olmuşam. Atamız ölenden sonra qardaşımm himayesinde qaldım. Bir az keçenden sonra qardaşım meye, qumara qurşandı. Atadan qalan bütün varidatını uduzdu. Bir gün de qırx nefer yoldaşıyla bize yığıştılar. Yene oynadılar. Her şeyi uduzan qardaşım meni de uduzdu. Men işi bele görende onların çayına, yemeyine bihuşdarı qarıştırdım. Onların hamisi bihuş oldular. Men de onların başını kesip buraya qaçtdım. Üreyimde kişilere olan nifret mene fil gücü verib, hamıya galib gelmişem. Deyirler exi, her şahın bir devranı olur. Deyesen menim de devranım buraya kimi imiş. İndi ihtiyar senindir, öldürersen ne yaxşı, qebul edersen ne yaxşı.

Şah İsmayıl gördü Erepzengi haqlıdır, odur ki, aldı görek nece deyir, eşidenler sağ olsunlar.

Aldı Şah İsmayıl:

Erepzengi, bu dünyada,
Hamı bir cür kişi deyil.
Yaxşılıq çox çetin işdir,
Her namerdin işi deyil.

Aslında düzler de var,
Gül çiçekti, düzlerde var.
Lale, nergiz düzlerde var,
Bunlar ki, düz daşı deyil.

Şah İsmayıl sever merdi,
Vurar, qırar her namerdi,
Kişi yakjız çeker derdi,
Bu ki zenen başı deyil.

Erepzengi gülümsedi. Bu, gülüşden çox bağışla demeye benzeyirdi. Erepzengi dedi:

Şah İsmayıl, bağışla, eşitmemisen ki, ilan vuran ala çatıdan da qorxari.

Beli, ezizlerim, dost kimi süfre açtılar. Yediler, içtiler. Şah ismayıl sağında Remdan Peri'ye, solunda Erepzengi'ye baxdı, üreyi dağa döndü, bu zalimlerin biri o birinden gözel idi. Aldı Şah İsmayıl:

Bir ovcunun iki ovu,
Bir o yanda bir bu yanda.
Ürek ister qovhaqovu,
Bir o yanda, bir bu yanda.

Mestane tek dayanıplar,
Al qumaşa boyanıplar,
Mest oluban uyanıplar,
Bir o yanda bir bu yanda.

Çox düşmüşem qavga, gala,
Bend olmadım yüzde hala,
Zalıım ister canım ala,
Bir o yanda bir bu yanda.

Evvel çağırdım Allah'ı,
Kömeyim şahların şahı,
Menaşiqin var penahı,
Bir o yanda bir bu yanda

Gör neler gelir xeyale,
Bes eyler Şah İsmayıl'a,
Ürek ister mehman ola,
Bir o yanda, bir bu yanda.

Erepzengi'yle Remdan Peri birbirine baxıb güldüler. Şah İsmayıl asıl heqiqeti açıb Erepzengi'ye danışdı. Onu Remdan Peri'yle tanış eledi. Onun Remdan olduğunu bilenden sonra Erepzengi barmağmı dişledi. Demek, menim qız olmağımı sene bu xanım deyib. Remdan Peri gülümsedi:

- Yoxsa üreyinden değil? Ele ömrün boyu qan içen olacaqdm?

Erepzengi de gülümsedi, dedi:

- Şah İsmayıl, o sen deyen yol çox qorxulu yoldur. Sen tek getsen men dözebilmerem. Men de seninle gedeceyem. Ölünce senden dönen deyilem. Sen hara, biz de ora.

Şah İsmayıl istedi, razı olmasın, sonra baxdı ki, yox sedaqetli dostla yaxşı yoldaştan adama zerer deymez. Odur ki, razılaşdı. Her üçü atlara suvar olup İsfahan'a teref yol aldılar.

Gece günüz at sürdüler, yolun damarın qırdılar. Dağ adlayıp düz geçtiler. Bulaklardan su içtiler. Ta ki, gelip çattılar İsfehan manalına. Gece idi, şehrin gireceyinde bir qapmı döydüler.

Bir qarı qapım açtı. Onları eve davet etti. Oturub ordan burdan sohbet edirler. Garı nene bun ların haradan gelip haraya gettiklerini nece xeber alır, Şah İsmayıl nece cevap verir, biz deyek siz eşidin.

Aldıqarı:
A bey balaları, a beyzadeler,
Yolunuz hayana, hara gedirsiz?
Allah bednezerden qorusun sizi,
Yolunuz hayana, hara gedirsiz[7]

Şah İsmayıl:
Başına dolanım, ay qan nene,
Eller adlamışıq, bele gelmişik,
Qavga çox görmüşük, bu yollar boyu,
Düşmüşük borana, sele gelmişik.

Qarınene:
Yönünüz haradır, yolunuz hara?
Neden yüz tutmuşuz bizim diyara?
Bizlerde derd çoxdur, güzarans qara,
Yolunuz hayana, hara gedirsiz?

Şah İsmayıl:
Biz hamımız olmalıyıq mihriban,
Allaha xoş geler mihriban olan,
Nene sizde var mı bir Gülzar ceyran
Onu getirmekçün, ele gelmişik.

Qarı nene:
Qırx günlük toyundan gedip dört haf te,
Ondan sohbet gedir bil bu terefte,
Toyunda seslenir saz, qaval, def te,
Yolunuz hayana, hara gedirsiz?

Şah İsmayıl:
Sene qurban olum men döne döne,
İlacım sendedir, sende, ay nene.
Gülzar'ımdan bir xeber getir mene,
Bağbanam xebere güle gelmişem.

Aldı qarı:
Men Gevher qarıyam, taparam bir yol,
Sırrın beyan etme, bilmesin sağ, sol,
Nişanesi var mı, söyle ey oğul?
Yolunuz hayana, hara gedirsiz?

Şah İsmayıl:
Şah oğluyam ismimdir Şah İsmayıl,
Görceyin Gülzar'ı men oldum mail,
Bir üzük nişane, eşgi hemayıl,
Haqqa sığmmışam, ele gelmişem.

Sazla dedikleri kimi sözle danışıp derdleştiler. Axırda qarı nene dedi:

- Ay oğul, bir aydır, Gülzar xanımin toyudur. Zor ile onu aparabilmezsiniz. Tek bir tedbir var, onu da men bilirem. Xerci senden, men düzelderem.

Şah İsmayıl dedi:

- Nene, ne qeder xerç desen mende. Amanın günüdür, kömek ele.

Şah ismayıl bunu deyip qarınm qucağma bir kese qızıl basdı. Qarı qızılları gören kimi gözleri ışıldadı. Cavanlıkta göz mehebbetten ışıldayar, kocalanda devlet görende. Odur ki, qarı Gülzar Xanım'm Şah İsmayıl'a verdiyi üzüyü alıp barmağma daxdı. Sonra dedi:

- Bax, men ne edeceyemse özüm bilirem. Bu gün heç. Axşam qaranlıq düşende xazır olun. Allah qoysa Gülzar Xanım özü gelecek sizin ya nınıza. Ondan sonrasını özünüz bilersiz.

Bunu deyip qarı üz qoydu Baxış Bey'in evine teref. Garı gelip qapının ağzında dayanır, onu içeri bıraxmırlar. Yasavullar qarıya deyirler ki, ay arvad senin burda ne azarın var. Get toy evine. Xanım xestedir, heç keşi yanma bıraxmır. Qarı işi ele görende hileye el atır, deyir:

- Men Gülzar Xanım'a pay getirmişem. Rehmetlik nenemin üzüyüdür. Ona yadigâr vereceyem. Menim heç kesim yoxtur. Neynirem ki?

Gülzar Xanım'a xeber gedir ki, bes bir qarı sene üzük getirib buraxak gelsin, yoxsa yox.

Gülzar işin ne yerde olduğunu o saat başa düşür ve deyir:

- Buraxm gelsin. O, menim rehmetlik anamın dostu olub.

Beli, qan gelir içeri. Gülzar qızlara izin verir ki, siz gedin bir qeder gezişin, men de bu nene ile bir qeder sohbet edim.

Gızlar Allah'dan isteyirler ki, bağ seyrine çıxsmlar. Garı ile Gülzar'ı evde qoyub bağa qaçırlar. Garı üzüyü Gülzar Xanım'a verir. Gülzar Xanım'm üreyi nane yarpağı kimi, ilk defa görüşe gedende buse alan, oğlan nefesini duyan gözellerin üreyi kimi esmeye başladı. Barmaqlarmı tazyanes edip sazı duvardan aldı, sinesine basdı. Nar üstünde saz durar mı, qoz üstünde qoz durar mı? Aldı ne dedi, siz sağ olasız.

Aldı Gülzar:

Ay imanı kâmil mehriban nene,
Üzük gönderenden mene bir xeber,
Bu könlüm saraym xeyli zamandır,
Derdlere salandan mene bir xeber.

Aldı Gevher qarı:

O da senin kimi dözebilmeyir,
İltimas gönderip, bizdedi indi.
Aşqm ümmanmda üzür gemi dek,
Hele batmayıptır üzdedir indi.

Gülzar xanım:

Sene nene deyim, yoxsa ki hele,
Yollara düşüp mü qavgaya gala?
Özü yalqız gelip, yoxsa qoşunla?
Nişane verenden mene bir xeber.

Gevher qarı:

Kapımı döydüler bu subhu seher,
İlk xoroz banmda yatmıştı seher,
Koşuna beraber gelip üç nefer,
Güç qılıçda deyil, sözdedir indi.

Gülzar Xanım:

Gülzaram, qalmadı taqetim daha,
Gorxuram bu sırrım yetişer şaha,
Nene, seni tapşıraram Allah'a,
Qelb6 evim örenden mene bir xeber.

Gevher qan:

Gevher'in sözüne eylesen emel,
Yetersen arzuna bu gün, ya seher,
Sene getirmişem, qızım, xoş xeber,
Atlar yol gözleyir, düzdedir indi.

Garı sazla dediyi kimi, sözle de Gülzar'ı başa saldı:

- Qızım, men Şah İsmayıl'la şartlaşip işin ce mini ona baaş salmışam. Sabah tezden sen evden çıxsan, şüphelenerler. Bu gece gerek siz qoşulup qaçasız. Onun yolu beledir, qızım: Sen menim paltarımı[7] gey eğnine.8 Men ise senin libasını geyinim. Durum pencerenin qarşısmda. Sen belini büküp düş aşağı. Yeni qarısan. Görseler deyersen ki, yasavulları yoxlayırdım. Görmeseler qapıcıların qarşısmdan geçende mene el ele. Ele bilecekler ki, sen qarısan. Men de sene el ederem. Qapını da içeriden bağlayaram. Ele bilirler ki, men yatıram. Yeni sen. Sonrası Allah kerimdi. Düz gedersen bizim evin qarşısına.

Beli, ezizlerim, Gülzar Xanım belini büküb qarı nenenin paltarmda gelip geçir qapıcıların qarşısından. Gapıda duranlar ne hakdasa 9 mubahese edirdiler. Adamın işini Allah düzeldende bende kimdir ki? Gülzar Xanım özünü yetirdi qarmm evine. Atlılar hazır durup Gülzar'ı gözleyirdiler. Tez herkes öz atım mindi. Şah İsmayıl'la Gülzar xanım hesretliler kimi birbirine şarmaşdılar. Ele bil ki, sarmaşıq güle sarmaşmışdı. Daha gözlemek vaxtı deyildi. Gülzar Xanım Şah İsmayıl'la bir ata suvar oldular. Sür hasür, qaça-qov gelib çattılar Erepzengi'nin imaretine. Erepzengi dedi:

- Şah İsmayıl, biz yaxşı iş görmedik, o yazıq qarmı öldürebilerler. Goy men gayıdım o qarmı qurtarım.

Şah İsmayıl razılaştı. Ama Remdan Peri razı olmadı. O dedi:

- Men indice remi atıp gördüm ki, qarı dalımızca gelir. Harda olsa indilerde gelip çıxar.

Ele de oldu. Bir de gördüler ki, qarı özünü yetirdi. Attan düşen kimi yere yayıldı. Sümüyüi görünen barmaqlarmı tezyane edib görek Şah Ismayıl'a ne deyir:

Düşman alay alay düzülüba gelir,
Durmak vaxti deyil, durmayın gedek,
O qeder leşker var sayı bilinmir,
Bu qalsm bir yana durmayın gedek.

Gülzar libasında çıxdım aradan,
Mene kömek oldu böyük Yaradan.
Gördüm qoşun gelir qaçtım odadan,
Elnizi alqana vurmayın gedek.

Bu Gevher'in canıdır size qurban,
Men qoca qarıyam sizsiz növcavan,
Razı deyilem axa nahaq qan,
Arx sizi aparsa sel sayın gedek.

Gevher qarı sazla dediyi kimi sözle de dedi:

- Ay balalarım, Gülzar gedenden sonra sehere qeder gözledim. Seher tezden çıxdım gördüm qapıcı baxır. Döndüm bağa teref. O ele bildi ki, men Gülzar Xanım'am, bağa girdim. Gördüm arxamca gelir. Tez özümü verdim qaranlıq yere. Davdak oğlu qaz kimi yanımdan geçti. Men geri gayıdıb qapıdan çıxtım. Özümü eve çattırmıştım ki, seher açıldı. Birce saat yattım ve hay-harayaz oyandım. Ne görsem yaxşıdır. Goşun düzelip hücuma hazır. Özümü bilmezliye vurub bir neferden xeber aldım ki, ne var, ne olub? Mene dediler ki, ay yazıq, dün yadan xeberin yoxtur. Demezsen bu gece Gülzar hanımı qaçırıplar. İndilerde qoşun dallarıyca ge decek. Men işi bele görende bir at minip yola dü zeldim. Heç bilmedim ki, at kimindir. Allah geçsin günahımdan. Deyirdiler Zal Bey yaman hirslenip. And içip ki, yerin altında da olsalar tapacağam.

Şah İsmayıl soruşdu:

Ay nene, Zal Bey kimdir?

- Kim olacaq, Gülzar Xanım'ın adaqlısı. Düz bir aydır qapılarmda toy çalınır. Eh, ne deyim, Allah rehmet elesin deyenleri. Düz deyipler ki, gelin atlandı, gör kime uyuştu.

Erepzengi bir qarı neneye, bir Şah İsmayıl'a baxdı. Aldı görek nece deyir, eşidenler sağ olsun.

Aldı Erepzengi:

Ne qeder gelse de qoşun, pehlivan,
Gıraram, qoymaram qala birisi,
İster Zal olmasın, Rüstem Zal olsun,
Goymaram ki, qısas ala birisi.

Minare düzelmir, mene baş gerek.
İtler zencir yeyir, hayli leş gerek,
Bir hemleden yıxılsın beş-beş gerek,
Keserem çıxmazlar yola birisi.

Dolanmışam Rum'u, Kayser, Fireng'i,
Çoxuyla etmişem cedeli, cengi,
Goşuna bes eyler bir Erepzengi,
Baxabilmez sağa sola birisi.

Söz tamama yeter yetmez her tereften Zal Bey'in qoşunu qalanı muhasereye aldı. Erepzengi tez dava libasını geydi. Şah İsmayıl qoymadı.

Dedi:

Hele axıldan istifade edek. Olmasa sonra çıxarıq meydana. Allah ya onlara verer, ya bize.

Şah İsmayıl qalanın qullesine çıxıb ucadan dedi:

- Zal Bey, görürem davaya gelmisen. Özün de bir qoşunla iki neferin üstüne hücum çekmisen. Men ise Gülzar X:anım'ın dalıyca tek gelmiştim. O meni sevir, men de onu. Haqsever olsaydın zorla qız almaq eşqına düşmezdin. Bu birincisi. İkincisi, axıllı serkerde boş boşuna qoşun qırdırmaz. Onu yaxşı bil ki, Erepzengi ile men sizin hamınıza beraberik. Gel nahaq qan dökmeyek. Sizden bir peh livan çıxsm, bizden de bir pehlivan. Hangi terefin pehlivanı qalip gelse Gülzar xanım olsun o terefin.

Zal Bey bir söz demedi. Goşun ehli yerbeyerden qışqırdılar ki, razıyıq, razıyıq.

Beli, ezizlerim, meydan sulandı. Şah İsmayıl dava libasında çıxtı ortaya. Zal Bey ise özü çıxmadı. Goşundan bir yeke pehlivan buraxtı ortaya. Bele ki, Şah İsmayıl onun karşısında uşağa oxşayırdı. Bu pehlivanın adı Qoç pehlivan idi. Qoç pehlivan o qeder ağır idi ki, altındaki at yüriyebilmirdi. Şah İsmayıl Ağyah ele seyirtti ki, Qoç pehlivan terpenmiye imkan tapmadı. Şah İsmayıl'ın zarbesine devam getirebilmeyen Goç pehlivan pendir motalı kimi yere dığırlandı. Onun sinesinden qan fışqırırdı. Bele olanda Şah İsmayıl üzünü Zal beye dutup dedi:

- Zal bey, sertimize göre, Gülzar Xanım bi zimdir. Men ise bele istemirem. Sizden kim Gülzar Xanım'ı isteyirse o ortaya çıxsm. Men onunla döyüşmek isteyirem.

Zal Bey gördü ki, daha iş işten geçip. Odur ki, ireli yeridi. Düz deyipler ki, döyüşün evveli öceşmeks sonu dövüşmek olar.

Aldı Şah İsmayıl:

Titreyib qarşımda döyme gözünü,
Dağların daşlarm seli menem men.
Şah babamdan min nesihet almışam,
Onun son ümidi eli menem men.

:

Aldı cevabında Zal Bey:

Tülkü tek qarşımda döyme gözünü,
Misir'in, Ecem'in fili menem men. Bir
ne'rem kâr eyler sen tek çaqqala,
İğitlerin vuran eli menem men.

Şah İsmayıl:

Qorxudan bükülüp döndün yumağa,
Taqetin qalmayıp üzün yumağa,
Üzerem boynunu bükerem ağa,
Qılıcı keserli Ali menem men.

Zal Bey:

Şöhretim yayılıp İran, Turan'a,
Baç veren deyilem sen tek nadana,
Men şiri bebirem, sen ise dana,
Qolu zorlu desen, beli, menem men.

Aldı Şah İsmayıl sonuncu bendi:

Adım Şah İsmayıl, elim Cjandahar,
Soruşsan, öyrensen, aslım, zatım var,
Meydanda ananı qoyarma ağlar,
Dağların tufanı, yeli menem men.

Zal Bey:

Zal Bey eyilmeyib xana, sultana,
Men de beyzadeyem, yaxşı bil, tanı,
Gerektir ele bir toy tutam sene,
Yolum yer altından fe'lli'ı menem men.

Beli bu sözden sonra pehlivanlar el attılar qılıca. O qeder vuruştular ki, qılıçları pare pare oldu. Bele olan halde her ikisi yere atıldılar, başladılar qurşa tutmağa. Zal Bey gördü yox deyesen Şah İsmayıl onu yıxacak hem yari elden gedecek, hem de olan olmaz ad-sanı. Güleşebildiyi son fendi işletmeye çalışırdı ki, Şah İsmayıl'm gözü torda olan ceyran kimi onlara baxan Gülzar Xanım'ı gördü. Ele bil qollarma fil gücü geldi. Ele bir ne're çekti, ki Zal Bey özünü itirdi. Şah Ismayıl Zal Beyi ne vaxt yere vurup sinesinde oturdusa bilmek olmadı. Xencerini çekip Zal Beyi öldürmek isteyirdi ki, Erepzengi Şah İsmayıl'm qolundan yapışdı.

- Kesme, Şah İsmayıl, dedi, koy gedip xeber aparsın ki, Gülzar xanımı nece oğlan aparıp.

Bütün qoşun ehli bu pehlivanların hünerine ehsen dedi. Zal Bey ayağa durub elini Şah İsmayıl'a uzattı.

- Sağ ol, dedi doğrudan da sen Gülzar'a layiq pehlivansan. Size yaxşı yol. Görürem bir atınız çatmır. Qoç pehlivanın atını da size verirem. Yene ne isteğiniz varsa, men hazıram.

Şah İsmayıl Gevher qarıya baxdı. Gördü qarının hali özünde deyil. Odur ki, Şah İsmayıl üzünü Zal Beye tutup dedi:

İltimasım budu, Zal Bey,
Bu nenemden muğayat ol.
Naxelefi keser çörek,
Bu nenemden muğayat ol.

Kimsesizi ezmek olmaz,
Qerib yerde dözmeks olmaz,
El obadan bezmek olmaz,
Bu nenemden muğayat ol.

Kim eylese haqdan dilek,
Dileyini verer felek,
Çetin anda merdlik gerek,
Bu nenemden muğayat ol.

Yalvarıram döne döne,
Amanetim olsun sene,
Kimsesizdi Gevher nene,
Bu nenemden muğayat ol.

Deyişmesin xoş xeyalin,
Qamarlama dünya malin,
Son sözüdür İsmayıl'm,
Bu nenemden muğayat ol.

Şah İsmayıl sazla dediyi kimi sözle de dedi ki, Gevher neneden muğayat olsun. Zal Bey söz verdi ki, Gevher neneden muğayat olacak ama bilmedi ki, bu işlerin teşkilatçısı hemen bu nene olmuştur. Erepzengi de bir at yükü qızıl, lal-cavahir verdi Gevher qarıya. Onlar İsfahan'a gayıtdılar. Şah İsmayıl üç gözelle Qandahar'a teref yol aldılar. Yolüstü bir gece de Remdan Peri'nin qardaşlarma qonaq oldular. Sabahı böyük hürmetle deye güle yollarına devam etdiler. Gethaget gelip Hatalı dağa çattılar. Bu dağ doğrudan da hatalı dağ idi. Uzun iller bu dağda mesken salmış qaçaxlarla, quldurlarla heçkes bacarabilmirdi. İster bu terefe geçen, isterse de o terefe geçen mutlaka bu dağda soyulup çapılmalı idi. Başqa yol da ki yox idi. Guba manalında Tenge deresi, Gandahar mahalında Hatalı dağ. İkisi de aynı çetinlikte yol idi.

Beli, ezizlerim, ele ki, Şah İsmayılgil gelip Hatalı dağa çattılar, quldurlar da bayaq ha kesirler yolu. Cjuldurbaşı qışqırır:

- Ay anası ağlar qalmışlar, neyiz varsa saym beri. Yoxsa hamınızı kıracağıq.

Quldurbaşı sonradan görür ki, bu oğlanın devresinde üç güzel var dünya malına deyişmek olmaz. İsmayıl isteyir bir el qol atsın, quldurlar çoxdan hazırladıkları toru çekirler. Şah Ismayıl da, gözeller de tora düşürler. Onlar hen-hün edib toru cırmak? isteyene qeder dördünün de el qolunu bağlayırlar. Quldurbaşı deyir ki, gelin bu oğlanı öldürek, yoldaşları ise deyirler ki, niye elimizi nahaq qana batıraq. Gelin onu salaq qırx arşmlık quyuya, aç qalıp öleçcek. Ele de edirler. Şah İs-

mayıl'ı salırlar qırx arşmlıq quyuya, deyirler ki, senin yerin ele oradır. Galır üç gözel, bir de qırx quldur. Quldurbaşı deyir:

- Yoldaşlar, bu gÖzeller mene çatır.

Yoldaşları ise razı olmurlar. Hamisi ayrılıqta isteyir ki, gözellere şahap olsun. Ne ise onların sözü düz gelmir. Bu zaman Erepzengi hiyleye el atır. O, el qolu bağlı halda deyir:

- Siz nahak ele danışırsız. Biz onsuz da o quyuya düşen oğlandan razı deyildik. Sizi Allah ye tirdi, bizi onun elinden qurtardız. İndi iş ele getirip ki, biz üç neferik, siz qırx nefer. Kim isteyir ki, bize şahap olsun- gerek öz hünerini göstersin. Bunun üçün de bir yol var. Siz öz arazda vuruşun, kim qalip geldi, bizim üçümüz de oluruq o qoçağm.

Çuldurlar tez bu fikirle razılaşırlar. Döyüş vaxdı geçtiyi üçün cengi sabaha saxlayırlar. Yene de Erepzengi quldurbaşma deyir:

-Biz qızıq, siz ise qırx quldur. Biz hara qa-
çabilerik? Bizim ellerimizi açın. Özünüz de bize keşik çekin.ı Bizim çadırımızı ayrı yerde, yani bir az aralıda qurun, -bu zaman o quldurbaşıya bir gözde vurur- sen ise xencerlerinden birini mene ver. Dünyada etibar yoxdur. Quldurbaşı gülür ve deyir:

-Yox, xanım ele şey yoxtur. Durup geceyken
qaçarsız. Sizin qollarızı o adam açacak ki, size şahap olur.

Guldurlar çadır qurup qızları çadırlara salırlar, özleri ise çadırın devresinde yatırlar. Ele ki, hamisi yatır. Remdan Peri çox fikirleşir ki, nece etsin ki, hem İsmayıl xilas olsun, hem özleri? Burada da remi atmağı kömeyine çatır. Remdan Peri Allah'a dua edip remi atır, Adil Şah'in yuxusuna girir. "Adil Şah, ne yatmısan, oğlun Hatalı dağda quldurların elindedir. Özünü bu gece çatdırdm çatdırdm- olmadı, oğlun elden getdi."

Adil Şah dik atıldı yuxudan:

- Aydadı bidad, oğlum elden getdi. Goşun at lansın. Seher onu öldürecekler.

Hamı biribirinin üzüne baxdı. Bu şah deli olup nedi? Gördüler ki, yox, şah dava paltarı geyir. Hamı tez hazırlandı. Atları eyerlediler. Goşun atlandı Deli dağ semte. Az getdiler, çox getdiler, seher gün çucanda gelip çattılar. Yol çox dar, hem de tik idi. Atlar birbirinin dalınca güçle dırmaşırdılar. Günortaya yaxın çıxtılar dağın üstüne. Bura geniş tala? idi. Guldurlar burada yurt salmıştılar. Adil Şah gördü burada bir ceng gedir ki, gel göresen. Ölen ölüp, yaralılar zarıyır.3 Olar beş nefer qalıp, onlardan da ikisi vuruşur, üç nefer de oturub gözleyir. Bir çadır da var. Oğlunu bu sağ qalanlar arasında görmeyip Adil Şah ta bayaq bihuş olup attan yere serildi. Qoşun aman vermeyip çadırı ve bu üç neferi muhasereye aldı. Guldurların el-qolunu bağladılar. Çadıra girip gördüler ki- burada da üç qız var ki- el qolları bağlıdır. Onların ellerini açtılar. Erepzengi tez aradan çıxıb Şah İsmayıl atılan quyunun yanma geldi. Kemend atıb onu quyudan çıxardı. Şah İsmayıl bütün hadiseleri birteher de olsa eşitmişti. O, Erebzengi'ni bağrına basıb ala gözlerinden öptü. Onun ağlına merhaba dedi. Bu kişi qeyretli qızı ilk defa görür kimi onu duz kimi yaladı. Erepzengi'nin yanakları od tutub yandı. Axı heyatda birinci defa idi ki, kişi nefesi onun gül çöhreli yanaqlarına deyirdi. Onlar birbirinden ayrılmazdılar, eğer Adil Şah'm sesi gelmeseydi.

- Oğul, haradasan? deye Adil Şah özünü on
lara çattırdı? Atabala birbirini qucaxladılar. Atası gözlerinden sevinç yaşlarını silip xeber aldı:

-Başına dönüm nece gelmisen?

Aldı Şah İsmayıl görek atasına nece cevap verir, eşidenler sağ olsunlar. Aldı Şah İsmayıl:

Canım ata, gözüm ata,
Şükür salamat gelmişem.
Sene qurban özüm ata,
Şükür salamat gelmişem.

Çox belalar çekdi başım,
Kırov* dutdu kirpik, qaşım,
Galiptir yeddi qardaşım,
Şükür salamat gelmişem.

Evvel çekdim derdi seri,
Ayırdettim xeyir seri,
İlk sirdaşım Remdan Peri,
Şükür salamat gelmişem.

Çox eyledim qavqa, cengi,
Gezdim Urum'u, Fireng'i,
Arxam oldu Erepzengi,
Şükür salamat gelmişem

Fend işletti Gevher qarı,
Taptım sevdiyim Gülzar'ı,
Şah İsmayıl deyer, tan
Şükür salamat gelmişem.

Adil Şah sonra birbir oğlunun getirdiyi gözellerin üzünden öpüb dedi:

- Xoş gelmişiniz, a menim gözel balalarım. Evim-eşiyim hamisi sizindir.

Men nece illerdir ki, bu günün sorağmda olmuşam. Gedek evimize. Size ele bir toy edeceyem ki, sesi illerle bu dağlardan gelsin. O qalan quldurları da atın özlerinin qazdığı quyuya. Qoy bundan sonra bu dağlarda quldurlar olmasın. Şükür Yaradana ki, onlar özleri öz köklerini kesdiler. Allah heç vaxt haqqı nahaqqa vermeyib. Bu dağın da adını değişib bu günden qoyuram Vefalı dağ. Bu dağ doğrudan da vefalı dağdır ki, menim oğlumu mene yetirdi.

Hamı sevine sevine Qandahar'a sarı yol aldılar. Axşam Çjandahar'a çattılar. Adil Şah toya başladı. Bu hem İsmayıl'ın gayıtmağma göre toy idi, hem de Şah İsmayü'ın toyu idi. Toy ne az ne çox qırx gün davam etti. Adil Şah toyun sonuncu günü taxta çıxıp dedi:

- Menim ezizlerim, bilirsiz ki, bu günü men ömrüm boyu gözlemişem. Bu gün men oğluma toy edirem. Bu toyda gördünüz ki, men serap ver medim. Bu günden itibaren menim velayetimde serap içilmeyecek. İndi sözüm İsmayıl oğlumun getirdiyi gözelleredir.
Hansmız İsmayıl'a gelin olursuz? Kızların üçü de bir ağızdan qışqırdı: - Men! Adil şah gördü ki, bunları ayırmaq heç de insaftan deyil. Odur ki, dedi:

- Men sizin üçünüzü de İsmayıl'a gelin edi rem. Herenize bir imaret diktireceyem. Herenizi bir imarete gelin aparacağam.

Şah İsmayıl ele bildi ki, atası onları ayırır. Aldı görek nece deyir.

Aldı Şah İsmayıl:

Başına döndüyüm gül üzlü ata,
Ölerik, ama ki, ayrılmarıq biz.
Adil, kerametli, xoş sözlü ata,
Ölerik, ama ki, ayrılmarıq biz.

Xudam bizi yazmış ezelden buta,
Çekmişik min bela, min yol da xata,
Sene qurban olaq dördümüz ata,
Ölerik, amma ki, ayrılmarıq biz.

Xudam xalk eylemiş göz qaşımızı,
Qısmete yazıptır düz yaşımızı.
Şah İsmayıl deyer kes başımızı,
Ölerik, ama ki, ayrılmarıq biz.

Adil şah güldü:

-Ay oğul, sebrin olsun. Kimdir sizi ayıran? Sö zümün ardına qulaq asm, deye sözüne davam etti.

-Men artıp qocalıb elden düşmüşem. Biliremki, ölkeye şahlık edebilmerem. Ömrüm de sonayetip. Bu günden bu velayetin şahlığını İsmayıl'a tapşıraram. Bir de vesiyet edirem ki, menim oğlumun heramihanesi olmayacaq. Cemaattan xerç almmayacaq. Oğrular, hainler bu velayetten sürgün edilecekler. Menim xeyir duam size kömek olsun. Ata xeyir-duası her şeyden güçlüdür.

Her tereften alqış sesleri eşidildi. Xalq Şah İsmayıl'm başındaki taca, getirdiyi gözellere baxıb deyirdi:

- Nece de yaraşır!

Bir ustad âşık bu gözel meclisi bele bir duvaqqapma ile bağladı:

Ay hazarat, eyan olsun,
Bey murada çattı bugün,
Zülm, cefa, töycüı xeraç,
Bu mahala yaddı bugün.
Geyinip şadlık libasın,
Torpaq, hava şaddı bugün.
Yayılıptır dilden dile,
Her teref azaddı bugün.
Adil Şah'dan İsmayıl'a
Xoş vesiyet qaldı bugün.

Dindiriben birbirini
Giz oğlana naz eyleyir,
Şükür edib yaradana[1]
Yar yarma göz eyleyir.
Bu eda bu naz ile,
Her ne edir düz eyleyir,
Minhörmetleyaradana,
Bereketi yüz eyleyir.
Namerd ile nanecibler,
Xecil olup hattı bugün.
Sığallanıp benövşeler,
Qaldırdı şad başmı,
Bu mahal attı daha,
Cefa, eziyet daşmı.
Şükür olsun yaradana
Bahar eyledi qışını
Soruşmaq niye gerekse
Nazlı senemin yaşını.
Baş söykeyib2 sinesine
Bir beyzade yattı bugün

1.vergi 2. yaslarap

V